# Assın gərək öz tağından göy məni...



**Hüseyn KÜRDOĞLU**

* * *

Məcnun varisiyəm, Kərəm simsarı,
Mənim çəkdiyimi el çəkə bilməz.
Hicranın bir anlıq müsibətini
Gün nədir, ay nədir, il çəkə bilməz.

Ədalət, mərhəmət xülyadır, xülya,
Səadət deyilən bir dadlı röya.
Gör necə dünyadır düşdüyüm dünya,
Qarışqa yükünü fil çəkə bilməz.

Qarışıb yalana, seçilmir doğru,
Baxışlar möhtəkir, ürəklər oğru.
Kimin ki, eşq ilə yanmasa bağrı
Sevda rübabına tel çəkə bilməz.

Baxtım gah bəm olur, gah orta, gah zil,
Hər üç məqamda da sızlayır könül.
Ağıl kamil olsa al eyləməz dil,
Ağlın bəlasını dil çəkə bilməz.

Tanrı kainatda, sən yerdə təksən,
Acı taleyimə şirin diləksən.
Şeytan məskənində yalqız mələksən,
Kürdoğlu hüsnündən əl çəkə bilməz.

*1993*

* * *

Laçın dağları tək hansı dağda var,
Bir belə yastana, bir belə sinə?
Dəyməz bütün dünya ana torpağın
Dırnağım ucunda bir beləsinə.

Dərədə gizlənər duman ayazda,
Payız da dost olar dumana, yaz da.
Xəyalım qoşula dumana yazda,
Bir yamaca sinə, bir belə sinə.

Qocaldım, sirdaşım-yarım az qalıb,
Nə qədər yar deyən yarımaz qalıb.
Keçib ömrüm-günüm, yarım, az qalıb,
Bir eləsi nəydi, bir beləsi nə.

Sənə mənzil oldu köksüm otağı,
Ölürəm, arzular köksüm o dağı.
Sən də, dağlar qızı, köksümə dağı
Bir beləsinə çək, bir beləsinə.

Bir şəhid məzarı bu dağda təkdir,
Obasız bu çeşmə, bu dağ da təkdir.
Gül qalxıb, bülbül də budaqda təkdir,
Mən həmsayə gəlim bir belə sinə.

*16.01.1993*

## Böyürtkən çiçək açdı

Böyürtkən çiçək açdı sizin bağ çəpərində,
Tikan batdı bağrıma, yaralarım dərində.
Başın üstə pıçıldar çinarın yarpaqları,
Oturmusan kölgədə, arx üstündə - sərində,
Böyürtkən çiçək açdı sizin bağ çəpərində.

Bağa girmək istəsəm tikanlar tutar, qoymaz,
Batar polad qıyıqtək, canımda tutar qoymaz.
Bir yandan da itiniz yüyürər, tutar, qoymaz,
Sarmaşıq da pərdədir pəncərə qənşərində,
Böyürtkən çiçək açdı sizin bağ çəpərində.

Doqqazınız bağlıdır, görüşmək yasaq olmuş,
Ömür keçir, gün keçir, bəs neynim, a sağ olmuş.
Gözlərinin həsrəti sinəmdə dağ-dağ olmuş,
Dustağam bir bədxahın böhtanında, şərində,
Böyürtkən çiçək açdı sizin bağ çəpərində.

Evinizin dörd yanı sıldırımlı, qayalı,
Dolandırar başına eşqə düşən xəyalı.
Payız günü görüşdük, könül açdıq bu bağda,
Dodağımız, əlimiz böyürtkəndən boyalı.
Ümidlər qönçələndi yenə yaz günlərində,
Böyürtkən çiçək açdı sizin bağ çəpərində.

*8.06.1993*

## Gecikmiş etiraf

Dağlar qızı, xatirəmdən enib gəl,
Götür tənə qırmancını, döy məni.
Bu qocadan o cavanın heyfin al,
Gömgöy elə, bulaq üstə qoy məni.

Yana-yana ah çəkirəm uzaqdan,
Üşənirəm indi yeldən, sazaqdan.
Şair etmiş o ağlayan bulaqdan
Ağ ovcunla içirtdiyin mey məni.

O gündən ki, uca dağdan enmişəm,
Şamlar kimi ərimişəm, sönmüşəm.
Başdan-başa qara günə dönmüşəm,
Cəzamı ver, göy əsgiyə düy məni.

Bir demədim ömrüm-günüm qocalar,
Divan tutar, tale məndən öc alar.
Məzarımdan qarğı qalxıb ucalar,
Çoban kəsər, eylər qəmli ney məni.

Bilirəm ki, əlin gəlməz döyəsən,
Dilin gəlməz bir acı söz deyəsən.
Yaxşım keçdi, yamanıma yiyəsən,
Ölən günü bir ağı de, öy məni.

Nə dərindir Kürdoğlunun yarası,
Nalələri yer ilə göy arası.
Etirafla gedərmi üz qarası,
Assın gərək öz tağından göy məni.